*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2024*
*Səh. 239-245*
https://doi.org/10.62837/2024.5.239

**GÜNEL QULIYEVA**
**Bakı Avrasiya Universiteti**
***Akademik Həsən Əliyev küç., 135 a***

# "525"-CI QƏZETDƏ İŞLƏNƏN NEOLOGİZMLƏRİN SEMANTİK XÜSUSİYYƏTLƏRİ

**Xülasə**

Dil insan tərəfindən istifadə edilən ən müasir kommunikasiya vasitəsidir və vaxt keçdikcə dəyişir, inkişaf edir. Bu dəyişikliklər bir çox zaman yeni fikirlərin, texnologiyaların və ya ictimai tendensiyaların təzahürü kimi dilə yeni sözlər və ifadələr əlavə edilməsi ilə müşayiət olunur.

Neologizmlər, dilin lüğət tərkibini zənginləşdirən əsas faktorlardan biri hesab edilir. Bu məqalədə, neologizmlərin dilin strukturu və funksiyalarına təsirini və onların dilin inkişafındakı əhəmiyyətini təhlil etmişik. Bu təhlil, dilin inkişafının dinamizmini və zənginliyini anlamağa kömək edir.

Məqalədə əvvəlcə, dilin əsas funksiyalarına bir nəzər salaraq müstəqil sözlər və ifadələrin ortaya çıxmasının dilin inkişafında nə qədər əhəmiyyətli olduğunu izah etməyə çalışmışıq. Məqalədə neologizm sözünün etimologiyası haqda da qısa məlumat qeyd edilib. Bundan əlavə neologizmlərin yaranma və inkişaf tarixi haqda məlumatlar da məqalədə öz əksini tapmışdır.

Məqalədə 525-ci qəzetin 2010-2020-ci illəri əhatə edən nüsxələri araşdırılmış və toplanan neologizmlər məqalədə qeyd edilmişdir.

Məqalədə 525-ci qəzetdə toplanan neologizmlərin "Yeni sözlər və yeni mənalar lüğəti"nin köməyi ilə semantikasıda verilmişdir.

***Açar sözlər:*** *neologizm, kütləvi informasiya vasitəsi, neologizmlərin semantikası, passiv lüğət fondu*

**GUNEL GULIYEVA**

## SEMANTIC CHARACTERISTICS OF NEOLOGISMS USED IN "525" NEWSPAPER

**SUMMARY**

Language is the most modern means of communication used by humans, and it changes and develops over time. These changes are often accompanied by the addition of new words and expressions to the language as a manifestation of new ideas, technologies or social trends.

Neologisms are considered one of the main factors that enrich the vocabulary of the language. In this article, we have analyzed the influence of neologisms on the structure and functions of the language and their importance in the development of

the language. This analysis helps to understand the dynamism and richness of language development.

First, in the article, we tried to explain how important the emergence of independent words and expressions is in the development of the language by taking a look at the main functions of the language. Brief information about the etymology of the word neologism is mentioned in the article. In addition, information about the history of the creation and development of neologisms is also reflected in the article.

In the article, the copies of the 525th newspaper covering the years 2010-2020 were examined and the collected neologisms were noted in the article.

In the article, the semantics of the neologisms collected in the 525th newspaper with the help of "Dictionary of new words and new meanings" is given.

Keywords: *neologism, mass media, semantics of neologisms, passive vocabulary fund*

**ГЮНЕЛЬ ГУЛИЕВА**

## СЕМАНТИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА НЕОЛОГИЗМОВ, ИСПОЛЬЗУЕМЫХ В ГАЗЕТЕ «525»

## РЕЗЮМЕ

Язык является самым современным средством общения, используемым людьми, и он меняется и развивается с течением времени. Эти изменения часто сопровождаются добавлением в язык новых слов и выражений как проявление новых идей, технологий или социальных тенденций.

Неологизмы считаются одним из основных факторов, обогащающих словарный запас языка. В данной статье мы проанализировали влияние неологизмов на структуру и функции языка и их значение в развитии языка. Этот анализ помогает понять динамизм и богатство языкового развития.

Сначала в статье мы попытались объяснить, насколько важно появление самостоятельных слов и выражений в развитии языка, рассмотрев основные функции языка. В статье приведены краткие сведения об этимологии слова неологизм. Кроме того, в статье также отражены сведения об истории создания и развития неологизмов.

В статье рассмотрены экземпляры 525-й газеты за 2010-2020 годы и отмечены собранные в статье неологизмы.

В статье дана семантика неологизмов, собранных в 525-й газете с помощью «Словаря новых слов и новых значений».

**Ключевые слова:** *неологизмы, средства массовой информации, семантика неологизмов, пассивный словарный фонд.*

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2024*
*Səh. 239-245*

## Giriş

**Açar sözlər:** *neologizm, kütləvi informasiya vasitəsi, neologizmlərin semantikası, passiv lüğət fondu*

İnsanlar fikirlərini müəyyən vasitələrlə bir-birinə ötürür, lakin burda ən əsas, kommunikativ vasitə dil hesab edilir. Dil ictimai hadisə hesab edilir. Dil xalqın yaranmasında, həmçinin hər bir xalqın fərdlərinin ayrı-ayrılıqda inkişafı üçün önəmlidir. Bu səbəbdən hər bir xalq öz dilini yaratdıqdan sonra onu qoruyub saxlayır. Əgər bir xalqın özünəməxsus dili yoxdursa həmin xalq yox olma təhlükəsi ilə üz-üzədir. Dil vasitəsilə insanlar bir-birilə ünsiyyət qurur, bunun sayəsində də ətraf aləm haqda bilik, dünya görüşün artması, yeni biliklərə yiyələnərək inkişaf edirlər. Dilin yaranma tarixi çox qədimdir. Bütün dillərin lüğət tərkibi həmin dili yaradan xalqın bir növ keçdiyi inkişaf tarixini əks etdirir. Dildə olan bütün sözlərin toplusu dilin lüğət tərkibində yerləşir. Dilin zəngin olmasında əsas amil lüğət tərkibinin zəngin olmasıdır. Lüğət fondu isə lüğət tərkibindən həcmcə kiçikdir. Lüğət tərkibinin əsas hissəsini lüğət fondu təşkil edir. Yeni söz yaratmaq işində lüğət fondu əsas rola malikdir. Lüğət tərkibinin dəyişməsinə ictimai-siyasi hadisələr, iqtisadiyyat, mədəniyyət, texnika, elmin inkişafı nəticəsində meydana gələn sözlər aiddir. Həm dildaxili, həm də dil xarici təsirlər dilin lüğət tərkibinin zənginləşməsində mühüm rol oynayır. Müəllifləri Möhsün Nağısoylu, Sayalı Sadıqova olan Azərbaycan ədəbi dilinin zənginləşmə mənbələri və inkişafı adlı kitabda dilin leksikasının zənginləşməsini yeni sözlərin yaranması, ümumxalq dilində olan sözlərin yeni mənada işlənməsi və digər dillərdən alınma sözlərin keçməsi üsulları ilə olduğunu göstərir.

Neologizmlər yeni fikir, ideyaları ifadə etmək və ya həyatın müxtəlif sahələrinə aid yeni terminlər yaratmaq, həm də dildə olan boşluqları doldurmaq məqsədi ilə ortaya çıxan sözlərdir**.** Neologizm sözünün etimologiyasına nəzər yetirsək. Neologizm sözü yunan sözü olub, neo-yeni və logos-təlim və ya anlayış leksemlerindən ibarətdir.(5, s. 69) Bu söz dilimizə rus-avropa dilləri vasitəsilə keçibdir. Ölkədə ictimai, siyasi, iqtisadi və digər sahələrin inkişafı ilə əlaqədar dilimizdə yaranan yeni sözlər ya başqa dillərdən keçmiş, ya da dilin daxili imkanları hesabına yaranmışdır. Onu da qeyd etmək lazımdır ki, dilə gələn bütün yeni sözlər neologizm hesab olunmur.

Neologizmlərin yaranma və inkişaf tarixini dövr olaraq 3 qrupa bölünür.

1. XX əsrdə dilə gələn yeni məfhumlar sayəsində neologizmlik qazanan sözlər, bunlar ya zaman keçdikcə dildə möhkəmlənib ümumişlək sözlərə çevrilir, ya da köhnəlmiş, arxaizmlərə çevrilir. Məs; ümumişlək sözə çevrilən-maqnitofon, metro, tozsoran, köhnəlmiş, arxaizmlərə çevrilən-kolxoz, sovxoz və s.
2. XX əsrin sonlarında meydana gəlib, müəyyən qədər yeniliyini saxlaya bilən sözlər məs; rep, barter, bonus,kontrakt və s.
3. XXI əsrdə yaranan yeni söz və ifadələr. Digər ötən əsrlərdə yaranan neologizmlərdən fərqli olaraq son dövrdə yaranan neologizmlər bir neçə qruplara bölünür.

Neologizmlər 2 formada yaranır:

1. Dilin daxili imkanı hesabına
2. Başqa dildən söz almaqla

Dilin daxili imkanları, söz ehtiyatı sayəsində dildə əmələ gələn neologizmlər 3 formada yarana bilir:

1. leksik yol-aparteid
2. semantik yol-siqnal, liberal
3. morfoloji yol

Dildə yeni yaranan, öz yeniliyini saxlayan və yeniliyini həm formada, həm mənada, həm də işlədilmə yerində göstərən sözlər neologizm adlanır. Neologizmlər, müasir dilin zəngin və dinamik xüsusiyyətləri olaraq dilçilik mühitinə dilə yeni rənglər əlavə edir.

Dilin lüğət tərkibində müşahidə olunan dəyişiklik yalnız yeni sözlərin onda əvvəllər mövcud olmayan sözlərin meydana gəlməsi ilə nəticələnmir, həmçinin köhnəlmiş sözlərin yox olması ilə nəticələnən prosesdir. Belə ki, lüğət tərkibinin artıq belə köhnəlmiş sözlərdən təmizlənməsi, azad olması yeni sözlər vasitəsilə zənginləşməsi həmin dildə danışanların lazım olmayan leksik dubletlərin sıradan çıxmasına şərait yaradır, həm də köhnəlmiş sözlər uzaqlaşdırılır.

**"525"-ci qəzetdə işlənən neologizmlər və onların semantikası:**

*Akkreditiv*: "Blokçeyn texnologiyasına gəldikdə isə, Dövlət Gömrük Komitəsinin apardığı araşdırmalar göstərir ki, bu texnologiyanın tətbiqi əsasən özəl sektor tərəfindən ümumilikdə ticarət-təchizat zəncirinin idarə edilməsində, o cümlədən ticarətlə əlaqədar bank əməliyyatlarında (məsələn, akkreditiv hesabların açılması) və logistika sektorunda sınaqdan çıxarılmaqdadır." [14]

*Akkreditiv sözünün mənası:* "Beynəlxalq ticarətdə geniş yayılmış bank vasitəsilə həyata keçirilən hesablaşma – pul- bank sənədi" [1, s.21]

*Magistratura*: "DİM magistraturaya hazırlaşan bakalavrlara müraciət edib." [9]

*Magistratura sözünün mənası:* "Bakalavratura təhsilini bitirdikdən sonrakı təhsil pilləsi." [1, s. 155]

*E-dərslik:* "Təhsil tarixində ilk dəfə olaraq Təhsil Nazirliyi tərəfindən elektron dərslik portalı (www.e-derslik.edu.az) istifadəyə verilib." [15]

*E-dərslik sözünün mənası:* Elektron dərslik [1, s. 71]

*Monitorinq*: "Məleykə Abbaszadə: "Monitorinq imtahanının nəticələri Təhsil Nazirliyinə təqdim olunacaq." [10]

*Monitorinq sözünün mənası:* "Lazım olan informasiyanın toplanması üçün aparılan müşahidələrə görə əldə edilən nəticələrə əsasən təhlil və qiymətləndirmə aparan prosesdir." [1, s.174] Son dövrlər təhsil müəssisələrində monitorinq işləri aparılması əsas məsələlərdən biri hesab edilir.

*Tyutor, distant:* "UNEC-də tyutor hazırlığı üzrə distant formada sertifikat proqramı təşkil olunacaq" [16]

*Tyutor sözünün mənası:* "Boloniya prosesinin tələblərinə cavab verən təhsilə keçid üzrə dekan köməkçisi" [1, s. 263]

*Distant sözünün mənası:* "Məsafədən, məsafəli" [1, s.67]

*Kurikulum:* "Kurslar müəllmlərin fənn kurikulumlarının tətbiqi sahəsində nəzəri və praktik hazırlıqlarını təmin etmək məqsədi daşıyır." [8]

*Kurikulum* sözünün mənası: "Yeni təhsil sistemində təlim prosesi ilə bağlı bütün fəaliyyətlərin təşkilini və həyata keçirilməsini əks etdirən konseptual sənəd" [1, s.146]

*Sillabus:* O, öyrənmə situasiyasiyasının təhlil olunması məsələsinə toxunub, sillabusda qoyulan tələblərin aydın şərh olunmasının vacibliyini vurğulayıb. [13]

*Sillabus sözünün mənası:* "Təhsil müəssəsində hər semestr üzrə tədris olunan fənlərin iş planı" [1, s.236]

*Adyunktura*: "Nümayəndə heyəti Silahlı Qüvvələrin Hərbi Akademiyasının Adyunktura və elm şöbəsi, kafedralar, tədris prosesi və elektron kitabxana ilə tanış olub." [17]

*Adyunktura sözünün mənası:* "Hərbi təhsil müəssisəsində doktoranturaya bərabər tutulan yüksək ixtisaslı elmi-pedaqoji kadrların hazırlanması forması." [1, s.15]

*Aromaterapiya*: "Burada uşaqların yaşayışı, müalicəsi, xüsusi təhsilə yiyələnmələri üçün hər cür şərait yaradılıb. Heydər Əliyev Fondunun dəstəyi ilə 2009-cu ildə inşa edilən bu tibb ocağında psixoloq, aromaterapiya, okulist, psixonevroloq, nevropatoloq, loqoped, pediatr, lor, ultrasəs müayinəsi, fizioterapiya otaqları fəaliyyət göstərir." [18]

*Aromaterapiya sözünün mənası*: "Bitkilərdən alınmış ətirlərin insan fiziologiyasına və psixikasına təsirini tədqiq edən psixoterapiya metodu" [1, s.36]

*Ekonometriya:* "Şura üzvləri UNEC-də tədris prosesinin idarəolunmasını səmərəli təşkil etmək və kafedralarda tədris olunan fənlərin paralelliyini aradan qaldırmaq məqsədilə "Ekonometriya" kafedrasının "Statistika" kafedrasına birləşdirilərək, "Statistika və ekonometriya" kafedrası yaradılması barədə qərar qəbul ediblər." [19]

*Ekonometriya sözünün mənası*: "İqtisadi obyekt və proseslərin qarşılıqlı 73 rabitəsini riyazi-statistik və model kontekstində öyrənən tətbiqi iqtisadi fənn" [1, s.72]

*Biotexnologiya*: "Universitetdən verilən məlumata görə, səfər zamanı Urmiya Universitetində fəaliyyət göstərən Təbii Tarix Muzeyi, Biotexnologiya Mərkəzi, doktorant və dissertantların elmi tədqiqat Mərkəzi, Baytarlıq eyni zamanda Texniki fənlər fakültələrinin nəzdində fəaliyyət göstərən laboratoriya və kabinələrlə tanışlıq olub." [20]

*Biotexnologiya mənası:* "Qiymətli məhsulların istehsalı üçün canlı orqanizmlərdən və bioloji proseslərdən istifadə olunması metodlarını öyrənən elm sahəsi" [1, s.49]

Hər bir dövlətin inkişafında onun iqtisadiyyat və ticarət sahəsinin inkişaf etməsi əsas amillərdəndir. Azərbaycan da son dövrlər iqtisadiyyat və ticarət sahəsində inkişaf etmiş ölkələrdən biridir. Qəzetdə müəyyən etdiyim neologizmlərin demək olar ki çox hissəsi məhz iqtisadiyyat sahəsinə aiddir.

*Diverfikasiya:* **"**Ölkə başçısının imzaladığı Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı ölkədə qeyri-neft

sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diverfikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, rifahına xidmət edir." [12]

## Nəticə:

"525-ci qəzetdə işlənən neologizmlərin semantik xüsusiyyətləri" məqaləsində apardığımız təhlillərdən aşağıdakı nəticələri çıxara bilərik:

Neologizmlər, dilin lüğət tərkibini, lüğət fondunu zənginləşdirir. Neologizmlər, fikri ifadə etmək üçün zamanın ruhunu və mədəniyyətini əks etdirir. Bu, müxtəlif sahələrdə və müstəqil fikirlərin ifadəsində yeniliklərə imkan verir. Yeni sözlər və ifadələr texnologiya və innovasiya ilə doğrudan əlaqəli olaraq ortaya çıxan yeni terminlər və ifadələr vasitəsilə dilin bu sahədəki inkişafını izləyir. Bu sözlər iqtisadiyyatın, əmək bazarının və texnoloji inkişafın müsbət və mənfi tərəflərini təsvir etmək üçün dilin adaptasiya etməsində rola malikdir. İctimai həyatda və müxtəlif sahələrdə baş verən təkmilləşmələri, dəyişiklikləri və inkişafları daha dəqiq şəkildə ifadə etmək üçün yararlıdır. Neologizmlər mətbuatda geniş yayılmışdır və bir çoxu uzun müddət ərzində köhnəlmiş və ya müəyyən olmuş tərəfdaşlar tərəfindən qəbul edilmişdir. Dil, hər dövrdə və sahədə yaşanan dəyişikliklərə cavab verərək özünü inkişaf etdirir və neologizmlər bu inkişafa dəstək olmaqda əsas rol oynayır.

Kütləvi informasiya vasitələrindən biri qəzetdir. 525-ci qəzetin müxtəlif nüsxələrində çoxlu neologizmlərə rast gəlinmiş, həmin neologizmlər və onların semantikası məqalə də qeyd olunmuşdur.

## ƏDƏBİYYAT

1. AMEA Nəsimi Adına Dilçilik İnistutu. Yeni sözlər və yeni mənalar lüğəti. Bakı: "Elm və təhsil", 2016, 278 s.
2. AMEA Nəsimi Adına Dilçilik İnistutu. Müasir Azərbaycan dili. Leksikologiya II kitab. Bakı: "Zərdabi nəşr" MMC 2022, 1152 s.
3. Cəfərov S. Müasir Azərbaycan dili. II hissə leksika Bakı; Şərq-Qərb, 2007, 191 s.
4. Həsənov H. Müasir Azərbaycan dilinin leksikası. Bakı; 2005, 451 s.
5. Xəlilov B. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı; 2008, 442 s.
6. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili I cild. Bakı; 2019, 464 s.
7. Nağısoylu M. Sadıqova S. Azərbaycan ədəbi dilinin zənginləşmə mənbələri və inkişafı. Bakı; Elm, 2020, 416 s.
8. "Birinci siniflərə dərs deyən müəllimlər üçün təlim kursları təşkil olunacaq", "525"-ci qəzet., № 56 (3132), 02.04.2010, 8 s.
9. "DİM magistraturaya hazırlaşan bakalvrlara müraciət edib.", "525"-ci qəzet., №14 (4992), 30.01.2018, 8 s.
10. "Məleykə Abbaszadə: Monitorinq imtahanının nəticələri Təhsil Nazirliyinə təqdim olunacaq.","525"-ci qəzet., №05 (4083), 11.01.2018, 8 s.

11. "“Mərkəzi Bankın İdarə Heyəti”nin iclası keçirilib”, “525”-ci qəzet., №128 (3683), 20.07.2012, 4 s.
12. “Nəsimi rayonunun sosial-iqtisadi inkişafı real vəziyət və perspektivlər”, “525”-ci qəzet., №123 (3679), 13.07.2012, 4 s.
13. “O, öyrənmə situasiyasının təhlil olunması məsələsinə toxunub, sillabusda qoyulan tələblərin aydın şərh olunmasının vacibliyini vurğulayıb”, “525”-ci qəzet., № 73 (4810), 27.04.2017, 8 s.
14. https://525.az/news/114307-sefer-mehdiyev-gomruk-prosedurlari-xeyli-sadelesdirilecek (01.05.2024)
15. https://525.az/news/27609-elektron-derslik-portali-istifadeye-verilib (01.05.2024)
16. https://525.az/news/117406-unec-de-tyutor-hazirligi-uzre--formada-sertifikat-proqrami-teskil-olunacaq (01.05.2024)
17. https://525.az/news/89795-ozbek-nazir-azerbaycan-silahli-quvvelerinin-herbi-akademiyasinda (01.05.2024)
18. https://525.az/news/115031-mehriban-eliyeva-bakidaki-usaq-psixonevroloji-merkezinde (01.05.2024)
19. https://525.az/news/86737-yeni-tedris-ilinde-unec-in-ilk-elmi-surasindan-muhum-meqamlar(01.05.2024)
20. https://525.az/news/52453-naxcivan-dovlet-universitetinin-emekdaslari-urmiya-universitetinde(01.05.2024)

**Rəyçi: fil.ü.f.d., dos., Ruslan Abdullayev**